# Əmirvan kəndində səyyar görüş-qəbul keçirilib

Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak edib.



Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev regionların sosial-iqtisadi inkişafı dövlət proqramında rayonumuzun bütün yaşayış məntəqələrində, eləcə də Əmirvan kəndində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Səbuhi Abdullayev kənd təsərrüfatının, ümumilikdə iqtisadiyyatın inkişafının əhalinin rifahının yüksəlməsində mühüm rol oynadığını, daha təminatlı etdiyini, bu baxımdan Əmirvanda da müəyyən işlərin görüldüyünü qeyd edib.

RİH başçısı ərazidə xüsusilə heyvandarlığın və əkinçiliyin daha çox inkişaf etdiyini vurğulayıb. O, məlumat verib ki, daha yaxşı yaşamaq, yüksək nəticələr qazanmaq üçün müasir iqtisadi idarəetmə əsaslarında kənd təsərrüfatının digər sahələrini–fındıqçılığı, baramaçılığı, meyvəçiliyi də genişləndirmək və inkişaf etdirmək lazımdır. Qeyd olunmuşdur ki, bütün fəaliyyət istiqamətlərinin təşkilində və sosial problemlərin həllində iş görmək istəyən kənd sakinlərinə hərtərəfli köməklik göstəriləcəkdir.

Sonra kənd sakinləri dinlənilib. Görüş iştirakçıları rayonumuzda həyata keçirilən sosial layihələrin uğurlu icrasına görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər. Onlar çıxışlarında 19 kilometrlik Böyük Əmili-Bılıx-Əmirvan yolunun asfaltlaşdırılması, əraziyə qaz xəttinin çəkilməsini, kənddə yeni transformatorun quraşdırılmasını, yaşayış məntəqəsinə gələn su və işıq xətlərinin təmir edilməsini, qış mövsümündə əhalinin oduncaqla təchiz olunmasını və yeni tibb məntəqəsinin tikilməsini xahiş ediblər.



RİH başçısı verilən təkliflərdən icrası rayon təşkilatlarının səlahiyyətində olan məsələlərin həlli barədə həmin təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verib. O, qaz xətti və asfalt yol çəkilişinin dövlət proqramına uyğun olaraq aparıldığını qeyd edib, ölkə başçısının tapşırığına əsasən yaxın illərə qədər rayonda qazlaşdırılmayan yaşayış məntəqəsinin qalmayacağını və yolların asfaltlaşdırılması işlərinin mərhələlərlə başa çatdırılacağını diqqətə çatdırıb.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto),**
**"Qəbələ"**

# Azərbaycançılıq əsas mənəvi dəyərimizdir





Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında Mənəvi Dəyərlərin Təbliği Fondu Qəbələ Rayon İcra Hakimiyyəti ilə birlikdə "Mənəvi dəyərlərimiz Azərbaycançılıq ideologiyasının tərkib hissəsidir" mövzusunda seminar keçirmişdir. "Qafqaz Sport Hotel"də baş tutan tədbirə orta məktəblərdə humanitar fənləri tədris edən müəllimlər, din xadimləri, ictimaiyyətin nümayəndələri dəvət olunmuşdu.

Seminarda Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Bakı Dövlət Universitetinin mənbəşünaslıq və tarixşünaslıq kafedrasının müdiri, professor Anar İskəndərov, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev iştirak etmişdir.

Tədbiri giriş nitqi ilə rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açmışdır. Seminarın gündəliyindəki məsələnin aktuallığından bəhs edən Arif Allahverdiyev tədbirin Qəbələdə təşkilinə görə Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyinə təşəkkür etmişdir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov fondun yaranma tarixi və zərurətindən danışmışdır. Natiq bildirmişdir ki, Mənəvi Dəyərlərin Təbliği Fondu möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə yaranmışdır. Fondun əsas vəzifəsi adından da göründüyü kimi mənəvi dəyərlərimizi təbliğ etməkdən ibarətdir. Bundan başqa fond xeyriyyəçilik missiyasını da yerinə yetirir.

Mehman İsmayılov bildirmişdir ki, mənəvi dəyərlərimizin təbliğində əsas yeri Azərbaycançılıq ideyası tutur. O bildirmişdir ki, Azərbaycançılıq ideyasının rüşeymlərinin 100 il bundan öncə Azərbaycan Xalq Cumhuriyyəti dövründən yayılmasına cəhd göstərilsə də bu ideyanın əsas banisi ulu öndər Heydər Əliyevdir. Ümummilli liderin milli-mənəvi dəyərlərin inkişafı siyasətində Azərbaycançılıq əsas yer tuturdu. Bu ideya onun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycançılıq siyasətinin uğurla inkişafının nəticəsidir ki, bu gün Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü bu ölkənin tam hüquqlu vətəndaşı sayır. Bu siyasətin nəticəsidir ki, Azərbaycan dünyada ən tolerant ölkələr sırasındadır.

Bakı Dövlət Universitetinin professoru Anar İskəndərov Azərbaycan ərazisində mövcud olan qədim dövlətlərdən biri–Albaniyanın tarixini xatırlatmışdır. Bildirilmişdir ki, paytaxtı Qəbələdə yerləşən bu dövlətin tərkibində 20-dən artıq xalqın nümayəndəsi yaşamışdır.

Professor Anar İskəndərov qeyd etmişdir ki, XIX əsrin ortalarından başlayaraq görkəmli ziyalılarımız Azərbaycan, azərbaycanlı sözünü, Azərbaycan dilini dirçəltmək üçün böyük işlər görmüşlər Abasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə bu yolun yorulmaz yolçuları olmuşlar.

1875-ci ildə Azərbaycan dilində ilk mətbu nəşr olan "Əkinçi" qəzetinin buraxılmasına min bir əziyyətlər bahasına nail olan Həsən bəy Zərdabi isə həmin dövr Azərbaycan maarifçiliyinin zirvəsində durur.

Anar İskəndərov ölkəmizdə dövlət müstəqilliyi bərpa olunduqdan sonra, xüsusən 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycançılıq ideyasının təbliği və möhkəmləndirilməsi sahəsində görülən işlərdən və nəticələrindən geniş bəhs etmişdir.

Zarağan kənd 2 nömrəli tam orta məktəbin müəllimi Gülsəfa Arzumanova mövzu ilə əlaqədar çıxış etmişdir.

Seminarı Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev yekunlaşdırmışdır.

**Qüdrət SƏMƏDOV,**
**Səhrab Umuyev (foto),**
**«Qəbələ»**

# Bakı-Qəbələ dəmir yolu gələn il açılacaq



Bakı-Qəbələ dəmir yolu gələn il açılacaq və onun istifadəsi üçün yeni qatarlar alınacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, İqtisadiyyat Nazirliyində 11 elektrik və 3 yeni dizel qatarının alınması barədə danışıqlar aparılıb.

Cavid Qurbanov qeyd edib ki, hazırda bu yolun 20 kilometrlik məsafəsində dəmir yolu çəkilişi üçün torpaq yatağı hazırdır və işlər davam etdirilir.

Gələn il turistlərin dəmir yolu ilə daşınmasını həyata keçirmək imkanı əldə olunacaq.